# Ağdamın dirçəlişində mühüm addımlar atılır

## *Dövlət başçısının bu rayona səfəri bərpa-quruculuq işlərinə diqqət və dəstəyin bariz təcəssümüdür*

bağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak ediblər.

Qarabağ bölgəsinin enerji təchizatı infrastrukturunun mühüm tərkib hissəsi olan həmin yarımstansiyalara qədər ümumilikdə 63 kilometr məsafədə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabelin çəkilməsi təmin olunub. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti də çəkilib. Diqqətçəkən daha bir məqam bundan ibarətdir ki, ölkəmizin elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradılıb. Həmin Mərkəzin köməyi ilə bölgədə yerləşən bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqini, önləyici analizləri, açılma və qoşulmaları, tənzimlənmə və digər mühüm əməliyyatları avtomatik surətdə həyata keçirmək mümkün olacaqdır. Azərbaycan üzrə 2500 kilometr məsafədə çəkilən optik kabel şəbəkəsi üzərindən qurulan yeni sistem vasitəsilə təkcə Qarabağın deyil, ümumilikdə Azərbaycanın enerji sistemi əhatə olunur.

Məlum olduğu kimi, müasir dövrdə istənilən ölkənin sənaye potensialının artırılmasında Sənaye Parkları mühüm rol oynayır. Ağdama səfəri çərçivəsində dövlət başçısı həm də Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində də iştirak etmişdir.

Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edəcək. Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib. Bu Sənaye Parkının 74 hektar ərazisində topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşdırılıb. Topoqrafik planlama zamanı Parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib. Geoloji-tədqiqat işləri zamanı isə Parkın ərazisində süxurların tərkibi və litoloji təsviri, fiziki və mexaniki layihələr üzrə əsas fəaliyyət istiqamətləridir.

Göründüyü kimi, yeni sənaye zonaları, eləcə də haqqında bəhs etdiyimiz Ağdam Sənaye Parkında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

Böyük Qayıdışın reallaşdırılması istiqamətində işlərin yüksək templərlə davam etdirilməsi təmin olunub. Cənab Prezidentin Ağdam rayonuna budəfəki səfəri çərçivəsində ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binası kompleksinin dövlət başçımızın iştirakı ilə təməlqoyma mərasimi keçirilib. İnşa ediləcək mənzillərin ümumi yaşayış sahəsi 21 min 921 kvadratmetr təşkil edir. Tikinti işlərinin 2023-cü ilin dekabrında başa çatdırılması planlaşdırılır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan ağdamlılar üçün bu yaşayış kompleksinin təməlinin qoyulması onların yenidən Ağdama qayıdaraq yaşamaq kimi arzularının reallaşdırılmasını daha da yaxınlaşdırır. Növbəti mərhələdə 0,86 hektar ərazidə daha 4 yaşayış binasının inşası ilə bağlı layihələndirmə işləri aparılır.

Azərbaycan dünyada multikultural dəyərlərə malik, bütün insanların dini mənsubiyyətindən asılı olmayaraq firavan yaşayışını təmin edən ölkə kimi tanınır. Həmçinin Azərbaycanda dini, mənəvi dəyərlərə tarixən xüsusi və həssas yanaşma mövcud olub. Dövlətimiz də həmişə bu sahəni diqqət mərkəzində saxlayıb, insanların ibadət məkanlarının əsaslı təmirinə, yenilərin inşa edilməsinə böyük önəm verib. Fevralın 13-də dövlətimizin başçısı cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olublar.

Ağdama səfəri çərçivəsində cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, həmçinin 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər. 6 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya-ortopediya, ürək-damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək. Müalicə ocağı ən müasir tibbi avadanlıqla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaq. Binanın zirzəmi hissəsindən isə stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcək.

Vətən müharibəsində əldə olunmuş Tarixi Zəfər nəticəsində işğaldan azad edilmiş Qarabağda bu gün aparılan bərpa-quruculuq işləri yüksək templə həyata keçirilir. Dövlət başçısı cənab İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 18 ildən artıq bir dövrdə Azərbaycan inanılmaz tarixi uğurlara nail oldu. Bütün bunlar əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, dövlət başçımız cənab İlham Əliyevin böyük məharətlə davam etdirdiyi düşünülmüş siyasətin nəticəsidir. İşğaldan azad edilmiş bütün rayonlarımız kimi, Ağdam rayonu da tez bir zamanda tam yenidən qurulacaq, öz sakinlərini qəbul edəcək və qüdrətli Azərbaycanın hərtərəfli inkişafına öz layiqli töhfəsini verəcəkdir.

**Emin QASIMOV,**
**"Respublika".**

Respublika .- 2022.- 25 fevral.- S.10.